**YAPONİYA SƏFİRLİYİ**
Hyatt Binası 3, 6-cı mərtəbə
İzmir küç. 1033, Bakı, Azərbaycan

**13 iyul 2012-ci il**

## Mətbuat üçün məlumat

**Yaponiya hökumətinin “Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı” çərçivəsində həyata keçirilmiş “Lənkəranın Xarxatan kəndində içməli su təchizatının inşası” layihəsinin başa çatması ilə əlaqədar açılış mərasiminin keçirilməsi**

**16 iyul 2012-ci il** tarixində, saat **09:30-da** Lənkəran rayonunun Xarxatan kəndində **“İçməli su təchizatının inşası”** layihəsinin başa çatması münasibəti ilə açılış mərasimi keçiriləcəkdir. Sözügedən mərasimdə Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Şusuke Vatanabenin və Lənkəran rayon İcra Hakimiyyətinin Başçısı cənab Taleh Qraşovun iştirakı gözlənilir.

Yuxarıda qeyd olunan layihə üzrə Qrant müqaviləsi Yaponiya Səfirliyi ilə Azərbaycan Demokratik Tələbə və Gənclər təşkilatı arasında 2012-ci il martın 9-da imzalanmışdır.

Bu layihə daxil olmaqla Lənkəranda aşağıda adları qeyd olunan üç layihə həyata kemirilmişdir:

| İl | Layihələr | Qrantın miqdarı |
|---|---|---|
| 2002 | Lənkəranın Lej kəndində orta məktəbin yenidən tikintisi | $79,425 |
| 2006 | Lənkəranda Quş qripi əleyhinə laboratoriyanın təkmilləşdirilməsi | $85,368 |
| 2012 | **Lənkəranın Xarxatan kəndində içməli su təchizatının inşası** | **$100,493** |
| | **CƏMİ** | **$265,286** |

“Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant yardımı Proqramı” bələdiyyələr, tibb institutları və QHT-lərin birbaşa məqsədi Azərbaycan xalqının yaşayış standartlarının yaxşılaşdırılması olan layihələrini dəstəkləyir. Bu cür layihələr yoxsulluğun azaldılması, sosial müdafiə, infrastruktur, səhiyyə və gəlirlərin yüksəldilməsinə yönəldilmiş sahələrdə həyata keçirilə bilər. Bu layihələr də daxil olmaqla, Azərbaycanda imzalanmış qrant müqavilələrinin ümumi sayı **154** və dəyəri **11,812,290 ABŞ dolları təşkil edir.**

Yaponiyanın Azərbaycana ayırdığı İnkişaf üçün Rəsmi Yardım iqtisadi infrastrukturun yaxşılaşdırılması, kənd təsərrüfatı, sosial sahə, mədəniyyət və insan resurslarının inkişafı kimi geniş sahələri əhatə etməklə, ümumi məbləği artıq **1 milyard ABŞ dollarını** keçmişdir.

Mətbuat nümayəndələri açılış mərasimində iştirak etmək üçün dəvət olunurlar. Əlavə məlumat üçün xanım Fumiye SUGİYAMA və xanım Leyla Hacızadə ilə aşağıdakı nömrələr vasitəsilə əlaqə saxlaya bilərsiniz: Bakı:

**Tel: (994 12) 490 78 18/19, Fax: (994 12) 490 78 20**